*7 dekabr–Azərbaycanda ilk muzeyin yaranma günüdür*

# Muzeylər tariximizin mühafizəçisidir

***"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün yeni-yeni muzeylər lazımdır və bu muzeyləri qoruyub saxlamaq vətəndaşlıq borcumuzdur".***

**Heydər Əliyev.**

Tarixdə bir çox yollarla iz qoymaq olar. Belə izlər ən çox muzeylərdə əksini tapır. Hər bir xalqın tarixinin öyrənilməsində muzeylərin rolu çox böyükdür. Eyni zamanda muzeylər hər bir xalqın, millətin çoxəsrlik tarixinin necə yollardan keçməsini, bir sözlə keçmişini, bu gününü əks etdirir. Çünki bütün tarixi məlumatlar, hadisələr dərinliyi və dəqiqliyi ilə muzeylərdə qorunur. Ta qədim zamanlardan indiyədək muzeylər ən güvənli mühafizə müəssisəsi, hər bir xalq üçün lazımlı məkan olmuşdur. Dünyada ilk muzey Ellin dövründə, Misirin o vaxtkı paytaxtı İsgəndəriyyədə açılmışdır. Dünya tarixində bu muzey zənginliyi ilə yaddaşlarda böyük yer tutmuşdur. Yəni ilk muzeyin tarixi bundan başlayır. Artıq dünyanın hər bir yerində böyük, zəngin muzeylərə rast gəlmək mümkündür. Dünya şöhrətli muzeylər bu gün benalxalq aləmdə diqqət mərkəzində saxlanılır.

Azərbaycanın qədim, orta əsrlər və yeni tarixinə aid yüzlərlə qiymətli sənət nümunələri, sənədlər dünyanın məşhur muzeylərində sərgilənir. Bu sərgilənmənin səbəbləri aydındır. Dəfələrlə düşmənlər tərəfindən talan olunan, yağmalanan Azərbaycan torpağının qənimətləri yad ellərə aparılaraq indi muzey sərvəti kimi saxlanılması bir tərəfdən bizlər üçün ağır olsa da bu günkü zamanda haradasa təsəllivericidir. Çünki son zamanlar yüksək səviyyədə inkişaf edən dövlətlər muzeyləri vasitəisi ilə tarixi, mədəni baxımdan əlaqələr yaradır. Dünyaşöhrətli muzeylərdə də Azərbaycan sənət əsərlərinin, incilərinin sərgilənməsi vətənimizin qədim tarixini, mədəni inkişafını, həmin dövrün sənətkarlarının yüksək bədii zövqünü əks etdirir. Beləliklə Azərbaycanın bütün sənət nümunələri dünyaya səs salır, qədim Azərbaycan tarixi ilə yanaşı onun əvəzolunmaz, zəngin, yüksək mədəniyyəti haqqında hər bir ölkənin vətəndaşı məlumatlı olur.

Bütün bunlarla yanaşı istərdim ki, Azərbaycan muzeylərinin tarixinə nəzər salaq. Hal-hazırda Azərbaycanda ümumilikdə 201 muzey fəaliyyət göstərir. Bunlardan 14 incəsənət, 7 ədəbiyyat, 12 tarix, 68 tarix-diyarşünaslıq, 5 döyüş şöhrəti, 43 xatirə ev muzeyi, 52 Heydər Əliyev Mərkəzidir ki, ümumilikdə xalqın bütün maddi və mənəvi sərvət nümunələrini qoruyur, mühafizə edir. Onu da qeyd etmək lazımdır ki, dünyada ilk xalça muzeyi Azərbaycanda fəaliyyətə başlamışdır. Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi 1967-ci ildən fəaliyyət göstərməklə yanaşı Azərbaycanın xalçaçılıq sənətini dünyaya tanıdır. Zəhmətkeş, əməksevər Azərbaycan qadınının böyük zövqlə toxuduğu xalçaları tarixə,gələcək nəsillərə ərmağan edir.

Azərbaycanda ilk muzey 1919-cu il dekabrın 7-dən fəaliyyətə başlamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin ilk parlamenti 1918-ci il dekabrın 7-də fəaliyyətə başladığı üçün ildönümü münasibəti ilə 1919-cu il dekabrın 7-də elə parlamentin binasında İstiqlal muzeyi yaradılmış və Azərbaycan tarixinin düzgün təbliğində geniş işlər görmüşdür. Lakin 1920-ci ildə sovet dövlətinin ənənələri əsasında yeni muzey yaradılmışdır. Muzeyin əsas materialları İstiqlal muzeyinin ekspozisiya və fondundan götürülmüş nümunələrdən ibarət olmuşdur. 1921-ci ilin may ayında ilk tamaşaçılarını qəbul edən muzey Azərbaycan Tarixi Muzeyi adlandırılmışdır. Azərbaycan Tarixi muzeyi Hacı Zeynalabdin Tağıyevin malikanəsində açılmışdır. İstiqlal muzeyinin ekspozisiyasında sərgilənən, göz bəbəyi kimi qorunan Azərbaycan Xalq Cümhurəyyətinin bayrağı, "İstiqlal bəyanaməsi"nin əsli, Azərbaycan Parlamentinin sənədləri və digər qiymətli materiallar isə Moskvaya «İnqilab» muzeyinə aparıldı. Lakin zaman keçdi, xalqımız tarixi müstəqilliyini 1991-ci ildə yenidən əldə etdi. Tarixə qovuşan İstiqlal Muzeyi ikinci dəfə 1991-ci ildə xalqa, millətə, dövlətə xidmət yolunda fəaliyyətə başladı. Azərbaycan tarixinin təbliğində bu gün də xalqımıza xidmət edir.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərliyi zamanı ,- 4 yanvar 1980-ci ildə hər bir rayonda Tarix-Diyarşünaslıq Muzeyinin yaradılması haqqında qərar vermiş və muzeylərin xalqın həyatında önəmli yer tutduğunu söyləmişdir. Bu gün dahi rəhbərin təşəbbüsu və əməyinin nəticəsidir ki, Azərbaycanın hər bir bölgəsində zəngin muzeylər fəaliyyət göstərməkdədir. 1980-ci ildə ilk olaraq altı rayonda tarix-diyarşünaslıq muzeyi yaradılmışdır. Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi də həmin altılıqda olan ilk muzeylərdəndir. Ümumiyyətlə, ulu öndərin tariximizə, mədəniyyətimizə diqqət və qayğısının nəticəsində 1980-ci ildən Azərbaycan Resbublikasında muzey mədəniyyəti formalaşdı.

**İlhamə SEYİDOVA,**
**rayon tarix-diyarşünaslıq muzeyinin kiçik elmi işçisi.**

## Muzey xəbərləri

### Rənglərin dili ilə

Rəssamlıq elə bir sənət növüdür ki, burada yalnız rənglər və hisslər danışır. Belə ki, hər hansı bir rəsm əsərinə baxdıqda həmin sənətkarın dilindən, dinindən asılı olmayaraq onu tamamilə anlayır, qəlbindən nələr keçdiyini duyur, daxili aləmini fəth edirsən. İllər ötür, zaman keçir bu sənət əsərləri daha da qiymətli olur. Belə qiymətli sənət əsərləri də böyük qalereyalarda, şəxsi kolleksiyalarda və muzeylərdə qorunur.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində daimi ekspozisiyada, həmyerli rəssamlarımızın, o cümlədən Azərbaycanda fəaliyyət göstərən sənətkarların hədiyyə etdikləri əsərləri sərgilənməkdədir. Müxtəlif mövzulu rəsm əsərləri sənətkarların daxili aləminin zənginliyindən xəbər verir. Bu rəsm əsərləri, rəng seçiminə, yüksək sənətkarlıq keyfiyyətlərinə görə hər kəsin zövqünü oxşayır.

Artıq muzeyimizin qiymətli eksponatına çevrilən bu əsərlər qarşısında hər bir tamaşaçı qeyri-ixtiyari olaraq xeyli dayanır. Əsərlərə baxan hər kəs bu əsərlərin yüksək zövq, bacarıq və istedadın məhsulu olduğunu qeyd edir, heyranlığını gizlədə bilmir. Onu da qeyd edək ki, həmin sərgidə Qəbələ məktəblilərinin də əl işləri geniş yer tutur.

✿ ✿ ✿

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi Quba, Qusar, Xaçmaz, Xızı, Sumqayıt, Abşeron məktəblilərinə muzey xidməti göstərmişdir.

"Ölkəmizi tanıyaq"devizi ilə vətənimizi qarış-qarış gəzən məktəblilərə Qafqaz Albaniyasının, Qəbələnin tarixi haqqında geniş məlumatlar verilmişdir. Ətraflı tarixi məlumatlar əldə edən şagirdlər muzeyimizdən xoş təəsüratlarla ayrılmışdır.

# Müasir gənclik və sosial inkişaf



Bu günlərdə Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində "Müasir gənclik və sosial inkişaf" İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Gənc sahibkarların innovativ koordinasiyası" mövzusunda tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov əvvəlcə iştirakçıları salamladı, sonra tədbirin mövzusu, proqramı haqqında məlumat vermək üçün sözü "Müasir gənclik və sosial inkişaf" İB-nin sədri Etibar Əsədova verdi. Etibar Əsədov layihə haqqında, ictimai birlik haqqında, sahibkarlıq, gənc sahibkarların fəaliyyəti, uğurlu sahibkarlığın prinsipləri, ölkəmizdə sahibkarlara göstərilən dövlət dəstəyi və yaradılmış əlverişli şərait, sahibkarlıq və innovasiya və s. haqqında geniş məlumat verdi.

Sonda iştirakçıları maraqlandıran mövzular ətrafında müzakirələr aparıldı.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**